

Vaqif YUSİFLİ

# BİR ÖMRÜN MONOLOQU

## ("Sənət fədailəri" silsiləsindən)

**Ömrü boyu monoloqlar söylədi. Gah Romeo oldu, Şekspir qəhrəmanının çılğın məhəbbət duyğularını səsləndirdi, gah Cəlal kimi "düşmən qızı"nın-Humayın qarşısında diz çökdü, gah da Ezop kimi insanları ağıla, təmkinə səslədi...**

1942-ci ilin 22 aprel günü Təbrizdə, şirniyyatçı Abbasqulu kişinin evində bir oğlan uşağı dünyaya gəldi. Adını Həsən qoydular.

1946-cı ilin soyuq dekabr günlərinin birində isə Cənubi Azərbaycanda Məşrutə hərəkatı qan dənizində boğuldu. Bir əsrdə artıq üçüncü dəfəydi orada azadlıq hərəkatı - istiqlal savaşı beləcə söndürüldü.. Və o soyuq dekabr günlərinin birində Abbasqulu kişi ailəsiylə birgə Arazın bu tayına pənah gətirdi.

Onda Həsən Əblucun 4 yaşı vardı.

1992-ci ilin fevral günlərinin birində isə gözlərində sevinc parıltıları Təbrizə gedəcək, qayıdanda Təbrizin gözəlliklərini ruhuna yayacaq, özünü tanımayacaqdı. Təsis etdiyi "Tusi" Mədəniyyət Mərkəzi də din və qan qardaşlarını mənən qovuşdurmaq istəyiylə yaranmışdı. Azərbaycan filmlərinin İran, İran filmlərinin isə Azərbaycan dilində səsləndirilməsində bu mədəniyyət mərkəzi qısa müddət ərzində xeyli iş gördü.

Bəli, illər boyu belə bir arzuyla yaşayırdı ki, bir gün Təbrizin küçələrini, xiyabanlarını addım-addım gəzəcək, həsrətiylə yaşadığı bu şəhərin havasını udacaq, doğulduğu torpağın gülü, çiçəyi qarşısında baş əyəcək, doğma adamların şirin ləhcəsini eşidəcək...Və bu arzusuna çatdı. Amma bir arzusu da vardı: Təbrizdə tamaşa hazırlamaq. Həsən Əbluc bu arzunu ölən gününə qədər ürəyində gəzdirdi.



Mən radioda, televiziyada dəfələrlə onun böyük məharətlə ifa etdiyi şeirləri dinləmişəm. Açığını deyim ki, onun qiraət ustası kimi misilsiz ifaçılığı, Hadidən, Müşfiqdən və onlarla başqa şairdən şeir deməyinə heyranlığımı gizlədə bilməmişəm. O, təkcə şeir demirdi, şairi dirildirdi və mən gözlərim qarşısında canlı Hadini, canlı Müşfiqi görürdün.



Həyatda isə cəmi bircə dəfə üz-üzə gəlmişik (Teatrda oynadığı rollara dəfələrlə tamaşa etsəmsə də). Hüsü Hacıyev küçəsiylə gedirdim. Onu görüb, istər-istəməz ayaq saxladım. Və birdən o da mənə sarı çevrildi: "Kibritin varmı?" dedi. Cibimdən alışqanı çıxardım və onun papirosunu odlandırdım. Ani işıqda onun gözlərinin içinə baxdım. Gözləri qəmli idi. Və bu bir neçə saniyə ərzində Həsən Əbluc gözlərimin qarşısında Hadiləşdi.

***Mən solmalıyam ta ki açılsın da baharım,***
***Mən sönməliyəm şəşələnsin də naharım.***
***Mən ölmədən əvvəl vətənim oldu məzarım,***
***Ərbabi-zəka düşmənidir indi diyarım.***
***Söndükcə zəka əhli-vətən ağlayacaqdır,***
***Göz incisi yaşlar o zaman parlayacaqdır.***

Papirosunu yandırdı, təşəkkür etdi və getdi. Beynimdə haçansa ondan bir yazı yazmaq fikri dolaşdı. Tezliklə bu arzumu gerçəkləşdirəcəkdim, amma amansız ölüm aman vermədi. Yalnız qardaşı, tanınmış kinorejissor Ənvər Əblucla onun həyat və sənət yolu barədə söhbət edə bildim.

Həsən Əbluc əsl sənət fədaisiydi. Nə məşqdən, nə teatrdakı, nə də radio-televiziyadakı işindən yorulardı. Mütaliəsinə, dünyagörüşünə heyrət edirdilər. Kazım Ziyadan və Müxlis Cənizadədən sonra səhnəyə çıxıb şeiri ŞEİR kimi söyləyən nadir aktyorlarımızdan biri idi və uzun illər tələbələrinə də bu istedadını əsirgəməmişdi. Amma Həsən Əbluc öncə aktyor idi. Hələ tələbə ikən Akademik Dram Teatrının səhnəsində Şeyda müəllim (Sabit Rəhman-"Toy") rolunu oynamışdı. Sonra uzun illər Gənc Tamaşaçılar Teatrında əvəzsiz rollar ifa elədi. Bəlkə bilərəkdən, bəlkə də nəyinsə naminə eyni rolu üç aktyora tapşırırdılar, amma o rola uzunömürlülük bəxş edən Həsən Əbluc olurdu. Onun Cəlalı (Səməd Vurğun-"Komsomol" poeması), Silviosu (K.Qaldoi-"İki ağanın bir nökəri"), Romeosu (Şekspir-"Romeo və Cülyetta") öz bitkinliyilə seçilirdi. Xüsusilə Cəlal rolu onun ifasında çox koloritli, temperamentli idi. O, bu obrazın içindəki daxili dramatizmi, bir insan kimi ideya vurğunluğunu və böyük məhəbbətini həm həzin, həm də çılğın notlarla ifa edirdi. Romeo isə daha cazibəli idi-Həsən Əbluc Şekspiri duyurdu. Faciəvi rollar üçün yaranmışdı sanki.





Deyirlər ki, kino üçün, xüsusilə seçilən rollara boylu-buxunlu, gözəl-göyçək, cüssəli aktyorlar, aktrisalar lazımdı. Həsən Əbluc isə boyca o qədər də cazibəli deyildi, bəlkə buna görə uzun müddət kino rejissorlarının diqqətindən kənarda qalmışdı. Yalnız 1982-ci ildə "Atları yəhərləyin" ("Qaçaq Nəbi") filmində kəndxuda kimi epizodik bir rola çəkildikdən sonra tilsim buzu əridi. Sonra qardaşı Ənvər Əbluc onu "Qara gölün cəngavərləri" filmində baş rola çəkdi. Daha sonra "Tənha narın nağılı" filmində Səyyad müəllimi, "Pəncərə"də Rövşənin atasını oynadı. Hələ "Çarəsiz sərnişinlər" və "Qatarda" televiziya tamaşalarındakı rolları. İsi Məlikzadənin "Qatarda" tamaşasındakı Sabit Mirzə rolu əslində, onun öz prototipi idi, desək, yanılmarıq.

Amma məyus olduğu günlər də vardı. Görürdün, hansısa bir rolu əlindən alırdılar, hansı tamaşayasa quruluş verməliydi, işə başlayırdı, amma kimsə o tamaşaya yiyə dururdu.

Rejissorluğa həvəsini təsadüfi saymaq olmazdı. Gənc Tamaşaçılar Teatrında bir neçə pyesə quruluş verəndən sonra özünə inamı artmışdı. O, elə sənətkar idi ki, istənilən əsərin ruhunu, əsas ideyasını duya bilirdi. İstər oynadığı rollarda, istərsə də quruluş verdiyi əsərlərdə ilk növbədə, müəllif ideyasını və bu ideyanın müasir dövrlə necə səsləşdiyini düşünürdü və çalışırdı ki, bu ideyanı səhnədə parlaq şəkildə təcəssüm etdirsin.

Ömrünün son illərində qərara almışdı ki, Mirzə Cəlilin "Anamın kitabı"nı hazırlasın. Böyük bir şövqlə məşqlərə başladı. "Anamın kitabı" Mirzə Cəlilin azərbaycançılıq ideyasının ən mükəmməl şəkildə ifadə olunmuş əsəridi və bu əsər indinin özündə də müasirdir. Həsən Əblucun fikrincə, "Anamın kitabı" nəsillərə mənəvi vəsiyyət idi ("Salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi... Hərdən bir ana dilində danışmaq ilə keçmişdəki o gözəl günləri yad etməyin nə eybi var"- bunu Mirzə Cəlil "Anamın kitabı"nı qələmə almamışdan xeyli əvvəl yazmışdı).

Böyük bir həvəslə məşqlərə başladı.

Və 1994-cü ilin 13 martında - elə o pyesin məşqində Həsən Əbluc gözlərini əbədi yumdu (Bu pyesi az sonra onun qardaşı Ənvər Əbluc tamamladı).

"Anamın kitabı" onun sənətdə sonuncu monoloqu oldu. Lakin bu monoloqu o axıra kimi söyləyə bilmədi.

Bir sənət fədaisinin ömrü sona yetdi, amma nadir hallarda olsa da, biz televiziyada yenə onun monoloqlarını eşidir və təskinlik tapırıq ki, İNSAN ÖLÜR, AMMA SƏNƏTİ YAŞAYIR...

